# Narkomaniyaya qarşı mübarizə hər kəsin vətəndaşlıq borcudur

**Narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımından əsas məqsəd və vəzifələrdəndir. Azərbaycanın dövlət siyasətində başlıca vəzifə olan, sağlam nəslin formalaşması istiqamətində həyata keçirilən tədbirlər sırasında mühüm istiqamət kimi diqqət yetirilən narkomaniya ilə mübarizə kampaniya xarakterli deyil, davamlı siyasətdir.**

**Hazırki dövrdə bütün bəşəriyyəti narahat edən ən ciddi sosial bəlalardan biri də narkomanlıqdır. Dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlarının həyata keçirdikləri geniş tədbirlərə baxmayaraq, bu ümumbəşəri bəlanın qarşısını almaq mümkün olmayıb. Təəssüf ki, narkomaniyanın coğrafiyası getdikcə genişlənir. Bu səbəbdən də dünya dövlətləri daha ciddi tədbirlərə əl atır.**

Bu gün narkomaniyaya qarşı barışmaz mübarizə aparan ölkələrdən biri də Azərbaycandır. Son illər bu istiqamətdə dövlətimiz tərəfindən görülmüş əhəmiyyətli tədbirlər sayəsində mühüm nəticələr əldə olunub. Ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra müstəqil respublikamızda narkomaniya bəlasına qarşı ciddi mübarizə aparılıb. Ulu öndərin imzaladığı "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 26 avqust 1996-cı tarixli fərman bu bəlaya qarşı mübarizənin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına rəvac verdi. Həmin fərmana əsasən narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə ümummilli proqram hazırlandı. Bunun ardınca bu sahədə dövlət orqanlarının və ictimai birliklərin əlaqələndirilməsi məqsədi ilə yaradılmış Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası önəmli əhəmiyyət kəsb etdi.

Ümummilli liderin xalqımızın xoşbəxt gələcəyinə hesablanmış siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının yorulmaz fəaliyyətinin, möhkəm iradəsinin xalqın mübarizliyi ilə sıx birləşməsi nəticəsində respublikamızda narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı uğurlu mübarizə aparılır. Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamlarla qəbul edilmiş Dövlət Proqramları bu sahədə xüsusi rol oynayıb. Respublikanın hüquq-mühafizə orqanlarının, əlaqədar dövlət qurumlarının və ictimaiyyətin birgə fəaliyyəti ilə narkomaniyanın qarşısının alınması sahəsində ölkədə yüksək nəticələrə imza atılıb.

Bu sahədə rayon gənclər və idman idarəsinin təşkilatçılığı və dəstəyi ilə yeniyetmə və gənclərin rayon, respublika, Avropa çempionatları və dünya birinciliklərı üzrə müxtəlif idman yarışlarına cəlb olunması xüsusilə önəmli rol oynayır. Bölgədə yeniyetmə və gənclərin asudə vaxtlarının daha səmərəli təşkil olunması üçün bütün imkanlardan istifadə olunur.

Məktəblilərin bilik yarışmalarında, rəsm, inşa müsabiqələrində, fənn olimpiadalarında iştirakının müntəzəm təmin olunması narkomaniyaya qarşı mübarizədə xüsusi önəm daşıyır. Respublikamızda narkomaniyaya qarşı mübarizədə ictimaiyyətin, valideynlərin rolundan hərtərəfli istifadə olunur. 26 iyun Narkomaniyaya Qarşı Mübarizə Günü münasibəti ilə keçirilən ümumrayon tədbirlərində bu amilə xüsusi əhəmiyyət verilib.

Bütün bunlara baxmayaraq, gənclər arasında narkotik maddələrdən istifadə edilməsi hallarının aşkar edilməsi çox böyük narahatlıq doğurur. Odur ki, hüquq-mühafizə orqanları tərəfindən narkotik maddələrdən istifadə, psixotrop vasitələrin qanunsuz dövriyyəsinə qarşı ciddi şəkildə mübarizə aparılır.

İnsan amili dövlət siyasətinin əsasını təşkil edir. Dövlət başçısı İlham Əliyev çıxışlarında daim bildirir ki, həyata keçirilən siyasətin önündə vətəndaş amili dayanır. Əhalinin sağlamlığının yüksək səviyyədə qorunması da prioritet məsələlərdəndir. Azərbaycanın gələcəyi kimi dəyərləndirilən gənclərimizə diqqət və qayğı isə daha mühüm vəzifə kimi qeyd edilir. Gənclər arasında idmanın, mədəni-kütləvi tədbirlərin genişləndirilməsində, idmana marağın artırılması naminə inşa olunan idman komplekslərinin tikilməsində də əsas məqsədlərdən biri sağlamlığın təmin edilməsi ilə yanaşı, insanların belə ağır fəsadlar törədən vərdişlərdən uzaqlaşdırılmasına nail olmaqdır. Azərbaycan gəncliyinin bu gününə və gələcəyinə xidmət edən Dövlət Proqramlarının müddəalarında da bu kimi tələblər öz əksini tapıb. Hər bir qurum üzərinə düşən məsuliyyəti lazımi səviyyədə yerinə yetirməklə qarşıya qoyulan məqsədlərə nail olmağa öz töhfəsini vermiş olar.

Çağırış xarakterli mövzular narkomaniyanın bir bəla olduğunu gənclərə daha əsaslı şəkildə çatdırmağa stimul verir. Ən əsası bu tədbirlər kütləvi informasiya vasitələrində işıqlandırılmaqla əhəmiyyətini daha da artırmış olur. Hər bir tədbirdə adları çəkilən qurumların təmsilçilərinin iştirakı, üzərilərinə düşən vəzifələrdən geniş bəhs etmələri və konkret nəticələri ortaya qoymaları növbəti tədbirlərin istiqamətini və əhatə dairəsini daha da genişləndirməyi bir növ tələbə çevirir. "Narkomaniya və müasir gənclik", "Narkomaniya cəmiyyətin qəddar düşmənidir", "Narkomaniyaya qarşı hamılıqla mübarizə", "Narkomaniya nədir?", "Zərərli vərdişlərə yox deyirik", "Narkomaniyaya qarşı mübarizə və sağlam həyat" devizi altında təşkil olunan tədbirlər maarifləndirmə işinin yüksək səviyyədə qurulmasına öz müsbət təsirini göstərir. Dövlət başçısı İlham Əliyevin imzaladığı "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram ((2007-2012-ci illər)", eyni zamanda bu sənədin davamı olaraq "2013-2018-ci illər üçün narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi istiqamətində ciddi səylər göstərir və atılan addımlar davamlı xarakter daşıyır. Bununla bağlı bu yaxınlarda qəbul edilmiş Proqramın icrasında məqsəd ölkə əhalisinin sağlamlığının qorunması üçün ciddi təhlükə olan, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən narkotik maddələrin ölkəmizə idxalının qarşısının alınması, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizənin gücləndirilməsidir. Qeyd etdiyimiz kimi, bu mübarizə Azərbaycan Respublikası Cinayət Məcəlləsində də öz əksini tapıb. Sənəddə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi cinayətlərə aid edilmiş, bu cür neqativ hallara qarşı mübarizəni əhatə edən hüquqi baza, tədbirlər planı təkmilləşdirilmişdir. Bir əsas məqam da hər zaman önə çəkilir ki, Azərbaycan "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" BMT Konvensiyasına qoşulduqdan sonra üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirib.




Narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyanı, bu sahədə görülən tədbirlər və onların nəticələri barədə əhalinin məlumatlandırılması istiqamətində aparılan təbliğat işlərinin gücləndirilməsində də məqsəd beynəlxalq səviyyədə həyata keçirilən narkomanlığa qarşı mübarizədə Azərbaycanın fəallığını təmin etməkdir. Hüquq mühafizə, gömrük orqanlarının bu sahədə apardıqları mübarizə tədbirləri nəticəsində ölkəyə qeyri-qanuni, qaçaqmalçılıq yolları ilə gətirilən xeyli miqdarda narkotik maddələrin müsadirə olunaraq zərəsizləşdirilməsi istiqamətində mübarizə tədbirləri davamlı olaraq diqqətdə saxlanılır. Bir sözlə, narkomaniyaya qarşı mübarizəni gücləndirməklə gələcəyimizi, sağlamlığımızı qoruyur, dövlətçiliyimizi daha da möhkəmləndirmiş oluruq. Azərbaycanın gələcəyi kimi dəyərləndirilən gənclərin sağlamlığının təminatı daim diqqətdə saxlanılan məsələdir. Ölkəmizin davamlı inkişafı hər bir problemin uğurlu həllinə, qarşıya qoyulan məqsədə yüksək səviyyədə nail olmağa stimul verir.

*Cavanşir AXUNDOV*
*Lənkəran hərbi prokurorunun köməkçisi, ədliyyə leytenantı*